

XƏZƏR MİRAJ

## QOVUŞDUM, QARABAĞ, DOĞMA EVİMƏ...

İllərdir bu qəlbim olub yaralı,
İncidib könlümü vətən həsrəti.
Olmadım ümidsiz, əlim uzalı,
Qovuşdum, ay Allah, gözəl kəndimə.
Qovuşdum, Qarabağ, doğma evimə.

Ulu babaların gözəl ocağı,
Yağı düşmənlərin olub oylağı.
Qalmadı ki hicran, gəlibdi çağı,
Qovuşdum, ay Allah, gözəl kəndimə.
Qovuşdum, Qarabağ, doğma evimə.

Uşaqlıq çağların xatirə səsi,
Hər gecə yuxuma dönüb nəfəsi.
İndi sevin hissi basıb hər kəsi,
Qovuşdum, ay Allah, gözəl kəndimə.
Qovuşdum, Qarabağ, doğma evimə.

Şəhid, babaların haqqın dərgahı,
Ruhları məzarda çəkirdi ahı.
Çatdı öz haqqına, bitirdi ahı,
Qovuşdum, ay Allah, gözəl kəndimə.
Qovuşdum, Qarabağ, doğma evimə.

İsa bulağında kuzəli qızın,
Susmuşdu bir sevgi nəğməsi sazın.
Ötdü bir qış daha, gəlibdi yazın,
Qovuşdum, ay Allah, gözəl kəndimə.
Qovuşdum, Qarabağ, doğma evimə.

Xoşbəxtəm bu günü, vətənim gülür,
Ağlayan gözləri sevinclə bölür.
Üzüm Qarabağa - vətənə dönür,
Qovuşdum, ay Allah, gözəl kəndimə.
Qovuşdum, Qarabağ, doğma evimə.

Susma, sən Xan əmi, Cabbarın səsi,
Natəvan gülündən Bülbülün səsi.
Gəlmişik qələbə zəfər nəğməsi,
Qovuşdum, ay Allah, gözəl kəndimə.
Qovuşdum, Qarabağ, doğma evimə.

Mənəm Azərbaycan, oğlum Qarabağ,
Olmaz xiffətimdə bir daha o dağ.
Sənindir bu canım, hər anı, hər çağ,
Qovuşdum, ay Allah, gözəl kəndimə.
Qovuşdum, Qarabağ, doğma evimə.

## GƏLİRƏM, EY VƏTƏN, SƏNƏ, QARABAĞ

Bəsimdir - qaçqınam doğma torpaqdan,
Acı əzablardan donub qalmaqdan.
Qaçqınam, köçkünəm, bitdi bu andan,
Gəlirəm, ey Vətən, sənə, Qarabağ!
Doğacaq günəşim yenə, Qarabağ!

Çox çəkdi bu gecəm, olmaz səhəri,
Vətənə həsrəti olan qəhəri.
Sanma ki, bahardan solub bəhəri,
Gəlirəm, ey Vətən, sənə, Qarabağ!
Doğacaq günəşim yenə, Qarabağ!

İlləri illərdən payız tək soldum,
Quruyub göz yaşım, saralıb soldum.
Bəsdir torpagimdan, canımdan oldum,
Gəlirəm, ey Vətən, sənə, Qarabağ!
Doğacaq günəşim yenə, Qarabağ!

İlhamla irəli! Ali komandan
Atəşin əmrini verdi bu andan.
Halaldı uqrunda olum bu candan,
Gəlirəm, ey Vətən, sənə, Qarabağ!
Doğacaq günəşim yenə, Qarabağ!

Silinsin düşmənin izi torpaqdan,
Bilsin ədaləti haqqı - nahaqdan.
Xilaskar orduyuq, İlham bu andan,
Gəlirəm, ey Vətən, sənə, Qarabağ!
Doğacaq günəşim yenə, Qarabağ!

Toxunma haqqıma, odur vicdanım!
İnamım, qürurum Azərbaycanım!
Canımdır, Vətəndir yüksək amalım!
Gəlirəm, ey Vətən, sənə, Qarabağ!
Doğacaq günəşim yenə, Qarabağ!

## CAN AZƏRBAYCAN...

Vətən mənim üçün ulu babamdır,
Ülvi məhəbbətim, sevgim, anamdır.
Dəyanət qürurum, dayaq atamdır,
Nəslimsən, kökümsən, can Azərbaycan!
İlhamlı sərkərdən var, Azərbaycan!

Ulu bir tarixin, enməz bayrağın,
Sən odlar yurdusan, sönməz ocağın.
Hər bir qarışında igid dayağın,
Nəslimsən, kökümsən, can Azərbaycan!
İlhamlı sərkərdən var, Azərbaycan!

Ruhumuz, eşqimiz, birlik rəmzimiz,
Sənədir andımız, vuran qəlbimiz.
Sənsən əlifbamız, şirin dilimiz,
Nəslimsən, kökümsən, can Azərbaycan!
İlhamlı sərkərdən var, Azərbaycan!

Qoynunda qəhrəman, ölməz igidlər,
Babəkin, Koroğlun, o nər Nəbilər.
Durub kesiyində daim ərənlər,
Nəslimsən, kökümsən, can Azərbaycan!
İlhamlı sərkərdən var, Azərbaycan!

Yeni bir tarixin zəfər uğrunda,
Yazılır İlhamla Vətən yolunda.
Birlik, türkliyimiz möhkəm durumda,
Nəslimsən, kökümsən, can Azərbaycan!
İlhamlı sərkərdən var, Azərbaycan!

## AZƏRBAYCANIN GÖZÜ QARABAĞ...

Əsrlərin sirdası bir tarixi sən,
Ulu Azərbaycanın bir məskənisən.
Unudulmaz yaddaşda sən bir əsərsən,
Sən Azərbaycanın gözü Qarabağ.
Sən Azərbaycanın gülü Qarabağ.

Natəvanın gülü, Vaqif zirvəsi,
Xanın zənguləsi, Bülbülün səsi.
Yaşar ürəklərdə hər bir incəsi,
Sən Azərbaycanın gözü Qarabağ.
Sən Azərbaycanın gülü Qarabağ.

Dağların bir əsgər, düşmənə səddi,
Möhtəşəm qalalar istehkam bəndi.
Görməsin, o ömrün bir ağrı, dərdi,
Sən Azərbaycanın gözü Qarabağ.
Sən Azərbaycanın gülü Qarabağ.

Baharın çələngi gözəl oylaqlar,
Cana bir dərmandır gözəl bulaqlar.
Gəzməli, görməli hər bir ocaqlar,
Sən Azərbaycanın gözü Qarabağ.
Sən Azərbaycanın gülü Qarabağ.

## ƏBƏDİ QƏLƏBƏ...

Başını uca tut, sən Azərbaycan!
Qovulur üstündən qara buludlar.
Seyr etsin səmanda yenə durnalar,
Əbədi qələbən bir sevgi olsun!
Qələbə əbədi - ömürlük olsun!

Yüksəlsin bayrağın ən yüksək dağda,
Vətənin aynası can Qarabağda.
Sevinsin təbiət, gülsün o bağda,
Əbədi qələbən bir sevgi olsun!
Qələbə əbədi - ömürlük olsun!

Gəzsin Cıdır düzü, ağ atlı oğlan,
İçsin şəfalı su İsa bulaqdan.
Ovutsun qəlbini, Xan, Natəvandan,
Əbədi qələbən bir sevgi olsun!
Qələbə əbədi - ömürlük olsun!

Baharın güləcək gülə, bülbülə,
Saçacaq günəşi Xarı bülbülə.
Nəğməsi, sözü Vaqif, Bülbülə,
Əbədi qələbən bir sevgi olsun!
Qələbə əbədi - ömürlük olsun!

Əbədi yurdumsan tarixin gözü,
Əsrlər yolunda yazılmış sözü.
Mənəm Azərbaycan, Qarabağ özü,
Əbədi qələbən bir sevgi olsun!
Qələbə əbədi - ömürlük olsun!

## SƏNSİZ

Yox olur həyatdan, sönür bu sevgi,
Ağarır, közərir külündə sevgi.
Ayrılıq əlindən dözülməz indi,
Alacaq ömrümü cəhənnəm odu.

Dözülməz bu dərdim yandırır məni,
Daş olub sinəmdə incidir məni.
İnan, sənsizlikdən öldürür məni,
Alacaq ömrümü cəhənnəm odu.

Unuda bilmirəm, ürəyim dözmür,
Həsrətdən alışır, dərdindən sönmür.
Biləsən bu cəzam, ömürlük ölmür,
Alacaq ömrümü cəhənnəm odu.

Görə bilsəydin sən, kaş bu halımı,
Yandırır könlümü sıxır canımı.
Sonunda ümidim, gəl gör axrımı,
Alacaq ömrümü cəhənnəm odu.